**UOT: 334.722.6; 658.115**

# AZƏRBAYCANDA YAXŞI İDARƏETMƏ PRİNSİPLƏRİ ƏSASINDA DÖVLƏT İDARƏETMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**L.İ. NOVRUZOVA**
**Azərbaycan Turizm və Menecement Universiteti**

*Məqalənin məzmunu səmərəli dövlət idarəetməsi probleminin araşdırılmasından və onun əsas prinsiplərinin təhlil edilməsi və yaxşı idarəetmə prinsiplərinin tətbiqindən ibarətdir. Tədqiqatın obyektini səmərəli dövlət idarəçiliyi, predmetini isə dövlət idarəetməsinin prinsipləri təşkil edir.*

***Açar sözlər:*** *Aktiv idarəetmə, idarəetmənin təkmilləşdirilməsi mexanizmi, idarəetmənin aktual problemləri, Yaxşı idarəetmə, İdarəetmə islahatı, Dövlət idarəetməsi, Siyasi elm*

Dövlət idarəetməsi ölkəyə rəhbərlik etmə məqsədilə aparılan iqtisadi, siyasi və inzibati hakimiyyətin həyata keçirilməsindən ibarətdir. O, vətəndaşların öz mənafelərini ifadə etmək, qanuni haqq və öhdəliklərini tələb etmək, həmçinin mövcud ziddiyyətlərin həll etmə mexanizmlərini, prosedur və hakimiyyət institutlarını özündə əks etdirir. Lakin dövlət idarəetməsi təkcə mənafelərin ifasından və ahəngləşdirilməsindən, yaxud müxtəlif qərarlar almaqdan ibarət deyil. O, eyni zamanda həmin qərarların müxtəlif sahələrdə icrası və onların cəmiyyətdə ictimai münasibətlərə daxil edilməsi deməkdir. Bu cür dövlət idarəetməsi anlayışı öz əksini «good governance», yəni "yaxşı idarəetmə" və ya "aktiv idarəetmə" məfhumunda tapmışdır.

Yaxşı idarəetmədə təşkilatlar, müəssisələr və vətəndaşların bir qrupu maraq və istəklərini bildirir, hüquqlarını, vəzifələrini, imkanlarını doğru qiymətləndirir, eləcə də mövcud ziddiyyətləri aradan qaldırırlar. Bu zaman nəzəri və professional biliyə əsaslanan cəmiyyət yerli, reqional, milli və qlobal səviyyədə idarəçiliyin daha effektli, şəffaf və aktiv formalarından istifadə edə bilir.

Yaxşı idarəetmə eyni zamanda xalq idarəetməsi, ali dövlət məmurlarının seçim yolu ilə təyini və vaxtı gəldikdə vəzifədən uzaqlaşdırılması, icra hakimiyyətinin qanuna və xalqın iradəsinə tabeliyi, siyasi plüralizm və əlumat azadlığı kimi demokratik əsaslar üzərində qurulub yeridilməsi fikrini ifadə edir.

Dövlət idarəetməsində demokratizmdən, qərarların alınması və icrasından başqa həmin qərarlardan çıxan nəticələr də vacibdir. Bu mənada yaxşı idarəetmə dövlət idarəetməsinin effektivliyi deməkdir ki, həmin effektivlik qarşıya qoyulan məqsədlərin lazımi müddətdə və ictimai resursların minimal istifadə edilməsi ilə ölçülür. Dövlət idarəetməsinin geniş xalq təbəqələrini, xüsusilə yerli səviyyədə qərarvermə və icraetmə prosesinə cəlb edən cəhətləri də böyük əhəmiyyət kəsb edir. Hakimiyyət strukturları arasındakı texniki xarakter daşıyan münasibətlərdən fərqli olaraq, burada dövlət idarəetməsi islahatının ictimai-siyasi cəhəti ön plana çıxır.

Son illər ərzində Azərbaycanda dövlət qulluğunun islahatına dair xeyli işlər görülmüş, qanunlar bazası möhkəmləndirilmişdir. Bununla bərabər, ictimai şəraitdəki inkişaf və dəyişmələr, həmçinin Azərbaycanın dünya iqtisadi, siyasi və xəbərləşmə şəbəkələrinə daxil olması, dövlətlə vətəndaş arasındakı münasibətlərin təkmilləşdirilməsi ilə bağlıdır. Azərbaycanın mütəmadi və daimi surətdə inkişafını təmin etmək üçün dövlət xidməti sistemində köklü dəyişikliklər edilir, həmçinin idarəetmənin effektivliyi və keyfiyyəti yüksəldilir.

**Yaxşi İdarəetmə Prinsipləri Əsasinda Dövlət İdarəetməsinin Təkmilləşdirilməsi Prioritetliyinin Elan Edilməsi**: Azərbaycan geniş həcmdə hakimiyyət səlahiyyətlərinin ölkə prezidenti institutunda cəmləşdiyi prezident respublikasıdır. Azərbaycan kimi ölkələrdə idarəetmənin səmərəliliyinin təmin olunması sahəsində yüksək nəticələr əldə etməkdə çox şey uyğun siyasətin prioritetliyi və prezidentin bu məsələ üzrə mövqeyindən asılıdır. Qeyd etmək lazımdır ki, 2000-ci illərdə idarəetmənin təkmilləşdirilməsi və xüsusilə də korrupsiya ilə mübarizə üzrə hakimiyyətin siyasi iradəsini bildirən hallar az olmamışdır. Bu sahələrdə bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdur. Prezidentin şəxsi təşəbbüsü və ideyası əsasında yaranan və bu gün də dayanmadan inkişaf edərək böyüyən "Asan xidmət" bunun bariz nümunəsidir. Dövlət orqanları qarşısında öz çıxışlarında prezident dəfələrlə mənfi hallarla mübarizənin gücləndirilməsi zərurətini qeyd etmişdir. Amma tədqiqatlar göstərir ki, Azərbaycan şəraitində vəziyyətin kökündən dəyişməsi üçün bu, kifayət deyil. Çoxsaylı məmur aparatına mənfi hallarla həlledici mübarizənin prinsipcə yeni mərhələsinin başlanmasının daha aydın nümayiş etdirmək zərurəti var. Məmurlar birmənalı dərk etməlidir ki, bu mübarizə Qarabağ probleminin və ölkənin beynəlxalq əhəmiyyətli neft-qaz

layihələrinin inkişaf etdirilməsi problemlərinin həlli ilə yanaşı dövlət siyasətinin prioritetlərindən biridir.

Azərbaycanda dövlət idarəetməsinin yaxşılaşdırılmasının vacibliyi Dünya Bankı və Transparency International kimi beynəlxalq təşkilatlarının araşdırmaları ilə də təsdiq edilmişdir.

Məsələn, *Governance Research Indicator Country Snapshot - GRICS* inteqral göstəricisi vasitəsilə Dünya Bankı İnstitutu dövlət idarəetməsinin effektivliyini müəyyənləşdirmə metodologiyasını hazırlamışdır. Həmin göstərici dövlət idarəetməsinə dair 6 parametri əks etdirən 6 indeksdən ibarətdir: səsvermə hüququ və hesabatlılıq; siyasi istiqrar və zorakısızlıq; hökumətin effektivliyi; qanunların keyfiyyəti; qanunun aliliyi və korrupsiyaya nəzarət. Ölkələr arasında müqayisə aparmağa imkan verdiyinə görə GRICS göstəricisi dünyada geniş yayılmışdır

İqtisadi və Siyasi Araşdırmalar Mərkəzinin Azərbaycana dair dövlət idarəetməsi sahəsində apardığı təhlillər göstərirdi ki, bu sahəyə aid olan mənfi hallar hələ də mövcuddur.

Hakimiyyətlə vətəndaşlar arasında məsafənin olduqca böyük və əlaqələrin çox zəif olması, hakimiyyət və idarəetmə orqanlarının əhali qarşısında sistemli dialoqun və hesabatlılığın yoxluğu, hakimiyyət səlahiyyətlərin və resursların əsas hissəsinin mərkəzi idarələrin əlində cəmləşdirilməsi, əhali ilə birbaşa əlaqədə olan təşkilat və idarələrin isə lazımi vəsait və səlahiyyətlərinin olmaması, yerli idarəetmənin və yerli icra orqanlarının zəifliyi, onların qeyri- demokratik qaydada yaradılması hakimiyyətlə əhali arasında onsuz da mövcud olan dərin uçurumu bir az da artırırdı. Yüz minlərlə adamların maraqlarına toxunan bir çox vacib hökumət qərarları və normativ aktlar vətəndaş birlikləri ilə müzakirə olunmadam qəbul edilir, vəzifəli şəxslərin əhali ilə görüşləri, hakimiyyət orqanlarının KIV və vətəndaşlar qarşısında hesabatları çox vaxt formal xarakter daşıyırdı.

Məhz buna görə də prezident inqilabi islahatlara start verdi. Bir sıra nazirliklər və komitələr ləğv edildi və ya bunaların bazasında yeni agentliklər yaradıldı. Ölkə üçün vacib islahatlardan biri də vergi və gömrük sahəsində aparılan islahatlar idi ki, Vergi və gömrük sahəsinə aparılan islahatlardır ki, bu da artıq öz bəhrəsini verməkdədir. Sahibkarların vergi yükünün azaldılmasına baxmayaraq əvvəlki illərlə müqayisədə büdcəyə ödəmələrin artması da bunun sübutudur. Eyni zamanda DSMF-yə edilən ödənişlərin Vergilər nazirliyi tərəfindən yığılması olduqca böyük effekt verdi. Vegilər nazirliyində Vergi Ombudsmanı xidmətinin yaradılmasını da xüsusi qeyd etmək lazımdır. Əhalinin maddi-rifah halının yaxşılaşdırılması üçün müxtəlif tədbirlərin görülməsi, şəhid ailələrinə birdəfəlik ödəmələrin verilməsi, devolivasiya ilə bağlı kredit borclarına görə əhaliyə dəyən ziyanın dövlət tərəfində qarşılanması və s. sosial yönümlü tədbirlər onu göstərir ki, artıq dövlət xalqla bir olduğunu nümayiş etdirməyə başlamışdır. Azərbaycanın ən yaralı yeri olan məhkəmə sistemindəki yarıtmazlıqları aradan qaldırmaq üçün Prezident məhkəmə sistemində də islahatların başlanması anonsunu verdi və bununla da bildirdi ki, idarəetmə xalqın iradəsinə və mənafeyinə uyğun aparılacaq. Xəzər rayon zəhmətkeşlərilə görüşdə "Mən hər bir icra başçısını və ya digər məmuru işə təyin edəndə tapşırıram ki, sən xalqa xidmət üçün təyin edilirsən, vətəndaş səndən narazı qalmamalıdır" deməsi böyük məmur ordusu üçün bir siqnaldır ki, artıq idarəetmə metodunu dəyişməlidir, bunun əksi mümkün deyil. İxracın təşviq edilməsi, o cümlədən müxtəlif ölkələrdə Azərbaycan ticarət evlərinin yaradılması ölkənin valyuta gəlirlərini artırmaqla bərabər qeyri-neft sektorunun inkişafına şərait yaradır. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib. Regionların sosial-iqtisadi inkişafı haqda dövlət proqramlarının qəbulu ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Ölkədə turizmi inkişaf etdirmək üçün viza sisteminin sadələşdirilməsi, vizaların elektron qaydada verilməsi və s. tədbirlər dövlətin bu sahəyə də prioritet sahə kimi yanaşmasını göstərir. İcbari tibbi sığorta haqqında Qanunun qəbulu isə əhali üçün çox vacib olan problemlərin həlli demək idi. Bu indi pilot lahiyə kimi bəzi rayonlarda tətbiq edilsə də 2020-ci ildən bütün Azərbaycan xalqı bundan istifaə edə biləcək. Məhz bunların nəticəsidir ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. "Doing Business 2019" hesabatında deyilir: "Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib" ("DOING BUSINESS 2019" - Training for Reform", World Bank Group, page 13.).

Qeyd edək ki, prezident İlham Əliyev ictimai nəzarət institutunun gücləndirilməsinin vacibliyini teztez gündəmə gətirir ki, bu da təsadüfi deyil, çünki ictimai nəzarətin güclü olduğu dövlətlər inkişaf edir.

Dünya təcrübəsi də göstərir ki, vətəndaş cəmiyyəti strukturlarının dövlət orqanlarının işində yaxından iştirak etməsi, verilən qərarlarda təsiretmə gücünə sahib olması effektiv üsuldur və adətən uğurlu alınır. Belə olan halda vətəndaş-dövlət münasibətlərinin tənzimlənməsində şəffaflıq prinsipi təmin olunur. Hazırda Azərbaycanda mərkəzi və yerli icra hakimiyyəti, eləcə də yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin olması dövlətin və şəxsən prezidentin diqqətdə saxladığı əsas məsələlərdən biridir.

2014-cü ildə "İctimai iştirakçılıq haqqında" Qanunun qüvvəyə minməsi məhz ictimai nəzarət institutunun formalaşması üçün idi. Bu qanuna əsasən dövlət və cəmiyyət həyatının müxtəlif sahələrində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində, ümumdövlət və yerli səviyyədə qərarların qəbulunda, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş mərkəzi icra hakimiyyəti orqanlarının, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakı nəzərdə tutulur. İctimai nəzarəti həyata keçirən ictimai şuralar isə icra strukturlarından asılı olmayan tamamilə müstəqil insanlardan təşkil olunmalıdır. Belə olmalıdır ki, ictimai şuralardakı insanlar nöqsanları üzə çıxarsınlar və onu müxtəlif instansiyalara çatdırsınlar, ictimailəşdirsinlər.

Göründüyü kimi ictimai nəzarətin əsas məqsədi qəbul edilən qərarların və onun icrasının qanunvericiliyə uyğun olmasını diqqətdə saxlamaq, vətəndaşların mənafe və hüquqlarının qorunmasına yardımçı olmaqdır.

Yuxarıda göstərilənlərlə bağlı onu demək olar ki, Azərbaycanda idarəetmə sistemində artıq yaxşı idarəetmənin prinsipləri tətbiq edilir. Bu isə o deməkdir ki, ölkənin demokratikləşdirilməsi və xalqın rifah halının daha da yaxşılaşdırılması naminə lazım olan islahatlar və tədbirlər bundan sonra da bütün sahələri əhatə edərək davam edəcəkdir.

**Nəticə:** Beləliklə, məqalədə yaxşı dövlət idarəetməsinin prinsipləri, meyarları və amilləri araşdırıldı, dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsinin prinsipləri tədqiq olundu. Bundan əlavə, idarəetmə prosesində səmərəliliyin qiymətləndirlməsi və müasir Azərbaycanda idarəetmə islahatlarının əsas istiqamətləri, ölkəmizdə dövlət idarəetməsində səmərəlilik probleminin vəziyyəti, idarəetmə islahatlarının zəruriliyi, məqsədləri, vəzifələri və prioritet istiqamətləri təhlil edilərək müəyyən olundu ki, yaxşı dövlət idarəetməsinin prinsipləri, problemləri, dövlət idarəetməsinin effektli fəaliyyətinin təmin edilməsinə təsir edən amillər və bu idarəetmənin qiymətləndirməsi meyarları vəhdətdə nəzərdən keçirilməlidir. Onları bir-birindən ayırmaq və ayrılıqda təhlil etmək məqsədəuyğun deyildir.

Ölkədə həyata keçirilən islahatlar yaxşı dövlət idarəetməsinə istiqamətlənməli və strateji məqsəd idarəetmə sisteminin təkmilləşdirilməsi olmalıdır. Yaxşı dövlət idarəçiliyinin Avropa prinsiplərinin nail olunması yalnız demokratik qanunların qəbul edilməsi ilə şərtlənmir. Burada ən əsas məqamlardan biri bu prinsiplərin fəaliyyət mexanizminin mövcud olması və gələcəkdə «effektiv dövlət» anlayışına vətəndaş cəmiyyəti atributlarının daxil edilməsidir. Çünki yüksək vətəndaş cəmiyyəti quruculuğuna nail olan dövlət daha qüdrətli və ədalətli olur.

**ƏDƏBİYYAT**

1.Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. 2.E-qanun.az internet saytı. 3.Azərbaycan Mərkəzi Bankı, Korporativ İdarəetmə Standartları, 2005. Azərbaycan Korporativ İdarəetmə Layihəsi, Beynəlxalq Maliyyə Korporasiyası 2121 Pennsillvaniya prospekti, Vaşinqton N.V., D.C. 20433, ABŞ, Dünya Bankı Qrupu

**Совершенствование государственного управления на основе принципов надлежащего управления в Азербайджане**

**Л.И.Новрузова**

Содержание статьи состоит из исследования проблемы эффективного государственного управления и анализа его основных принципов и применения принципов надлежащего управления. Объектом исследования являются принципы эффективного государственного управления и субъекта государственного управления.

***Ключевые слова:*** *Активное управление, механизм совершенствования управления, актуальные проблемы управления Государственное управление, Надлежащее управление, Реформа государственного управления, Государственное управление, Политология*

**Improving public administration based on good governance principles in Azerbaijan**

**L.I.Novruzova**

The content of the article consists of an investigation of the problem of effective public administration and its analysis of its key principles and the application of good governance principles. The object of the research is the principles of effective state administration and the subject of public administratio

***Key words:*** *Active management, mechanism of improvement of management, actual problems of management Governance, Good governance ,Governance reform ,Public administration, Political science*